BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2015

UOT 24 (479.24)

# XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA MİLLİ HƏRƏKATIN YARANMASI VƏ TƏŞKİLATLANMASI

**N.Y.İSGƏNDƏROVA**
***Bakı Dövlət Universiteti***
***Nehayet87@gmail.com***

*Məqalədə XX əsrin əvvəllərində Azərbaycanda milli hərəkatın yaranması və təşkilatlanması prosesindən bəhs edilir, siyasi partiyaların yaranması və fəaliyyəti araşdırılır. Eyni zamanda siyasi partiyaların Azərbaycanın istiqlalı uğrunda apardığı mübarizə təhlil edilir və milli hərəkatın inkişafında Azərbaycan ziyalılarının rolu işıqlandırılır.*

**Açar sözlər:** milli hərəkat, siyasi partiyalar, muxtariyyət, Azərbaycan istiqlalı, milli ziyalılar

Azərbaycan xalqı tarix səhnəsinə çıxandan daim yadelli işğalçıların hücumlarına məruz qalmış və milli azadlıq mübarizəsinə qalxmışdır. XX yüzilliyin əvvəllərində sosial münaqişələrin kəskinləşməsi, fəhlələrin kütləvi etirazları, Azərbaycan kəndlilərinin artan narazılığı Azərbaycanda cəmiyyətin bütün təbəqələrinin siyasi və ideoloji cəhətdən fəallaşması üçün obyektiv şərait yaratdı. Çar Rusiyasının böyük dövlətçilik siyasəti, milli zülmün güclənməsi, imperiyanın milli ucqarlarında yaşayan xalqların hüquqlarının hər cür sıxışdırılması cəmiyyətin milli məsələnin tezliklə həllində marağı olan bütün təbəqələrini birləşdirdi. Bu ondan irəli gəlirdi ki, milli məsələ ən mürəkkəb sosial məsələlərdən biri idi. Millətin taleyindən narahat olan cəmiyyətin mütərəqqi hissəsi getdikcə daha kəskin şəkildə mövcud quruluşun dəyişməsi məsələsini ortaya qoyur, islahatlar keçirilməsini tələb edirdi. Çara və hökumətə qarşı hərəkatlar - fəhlələrin, kəndlilərin və ziyalıların çıxışları milli-azadlıq hərəkatında sıx birləşirdi.

XX əsrin əvvəli neft Bakısının fəhlələrinin kütləvi çıxışları ilə əlamətdar idi. Həmin çıxışlarda Azərbaycan fəhlələri fəal iştirak edirdilər. 1903-cü ilin iyul tətilində, 1904-cü ilin dekabr tətilində və başqa tədbirlərdə onların iştirak etməsi buna sübutdur.1904-cü ilin dekabr tətili xüsusi əhəmiyyətə malik idi,

çünki onun nəticəsində mədən fəhlələrinin, o cümlədən də çoxlu azərbaycanlının əmək haqqının artırılmasına və bəzi başqa iqtisadi tələblərinin yerinə yetirilməsinə nail olundu. Neft sənayeçiləri ilə fəhlələr arasında bağlanmış kollektiv müqaviləyə uyğun olaraq neft sənayeçiləri aşağıdakılar barədə öhdəlik götürmüşdülər: iş gününü 9 saatadək azaltmaq, gündəlik xarakter almış işdənkənar vaxtlarda işi ləğv etmək, müntəzəm gecə işlərini xüsusi fəhlə ştatı vasitəsilə gördürmək, onların iş gününü 8 saatdan çox etməmək, fəhlələrlə nəzakətli davranmaq, yağlayıcılar, dartayçılar, ocaqçılar, qazmaçı fəhlələr və qara fəhlələr üçün əmək haqqının minimum məbləğini müəyyən etmək və s. (7, 48). Hesablaşma kitabçalarının rus dili ilə yanaşı qeyri-rus millətindən olan fəhlələrin ana dilində, başa düşdükləri dildə çap edilməsi barədə bəndin müqavilənin şərtlərinə daxil edilməsi əlamətdar hadisə idi. Kollektiv müqavilənin bu şərti fəhlələrin siyasi və milli mənlik şüurunun yüksəlişinə çox böyük təsir göstərdi. Müqavilənin imzalanması Azərbaycan fəhlələrinin öz hüquqları uğrunda mübarizəsi tarixində dönüş nöqtəsinə çevrildi və onlar üçün öz mühüm mənafe və tələblərini müdafiə etmək perspektivləri açdı.

1904-cü ilin dekabr hadisələrində bütün müsəlman dünyasında ilk sosial-demokrat təşkilatı olan "Hümmət" (6, 289) təşkilatı da RSDFP-nin Bakı Komitəsi ilə birlikdə iştirak edirdi. "Hümmət" təşkilatını yaratmaq təşəbbüsü Azərbaycan ziyalılarının nümayəndələri S.Əfəndiyevə, M.Mövsümova, A.Axundova, M.Əzizbəyova, M.Ə.Rəsulzadəyə, M.Mirqasımova, A.Kazımzadəyə, M.Hacıyevə, M.Hacınskiyə və başqalarına məxsus idi (1, 113). Məhz adları qeyd edilən ziyalıların birgə səyi nəticəsində 1904-cü ilin oktyabrından Bakıda fəaliyyətə başlayan təşkilatın millətlərin öz müqəddəratını təyin etmək, muxtar vilayətlər yaratmaq hüququ barədə şüarlar irəli sürməsi və bunun II qurultayda proqrama ayrıca müddəa kimi daxil edilməsi, Azərbaycan ziyalılarının ən mütərəqqi hissəsinin siyasi maraqlarına uyğun idi və onların sosial-demokrat təşkilatına geniş cəlb olunmasına gətirib çıxarmışdı (12). Lakin onların bir çoxu bu müddəanın şüarçılıqdan başqa bir şey olmadığını tezliklə başa düşüb bu təşkilatdan çıxdılar və özlərini hər cür milli zülmün və qeyri-bərabərliyin ləğvi uğrunda mübarizəyə həsr etdilər. Buna baxmayaraq, milli hərəkatın yaranması mərhələsində bu görkəmli siyasi xadimlərin "Hümmət" təşkilatında iştirakı Azərbaycan xalqının azadlıq mübarizəsinin, onun siyasi fəallığının artmasına kömək etdi (7, 48).

1904-cü il kollektiv müqaviləsinin şərtləri tez-tez pozulurdu ki, bu da Bakı fəhlələrinin yeni-yeni çıxışlarına səbəb olurdu. Həmin çıxışlarda azərbaycanlılar getdikcə daha fəal iştirak edirdilər. 1905-ci il yanvarın 4-dən 20-dək olan dövrdə Bakının iri sənaye müəssisələrinin fəhlələri tətil etmişdilər. Tarix ədəbiyyatında belə hesab edilir ki, Bakı çıxışları bütün Rusiyada inqilabi çıxışların artmasına bəhanə oldu. Ola bilsin ki, burada müəyyən dərəcədə həqiqət var, çünki xalqların dözülməz sosial və hüquqi vəziyyəti bütün ölkədə imperiyaya qarşı çıxışlara səbəb olurdu (3, 11).

Dünyanın hər yerində milli-azadlıq və milli intibah ideyalarının inkişafı

üçün müəyyən tarixi şəraitin yaranması zəruridir. Müstəmləkəçilik sisteminin böhranı, imperiyaların zəifləməsi və dağılması, adətən milli-azadlıq hərəkatına təkan verir. Milli azadlıq mübarizəsi isə öz növbəsində milli məfkurə məcrasında inkişaf edir. Milli zülmə qarşı etiraz eyni millətin müxtəlif siniflərini vahid milli ideya ətrafında birləşdirir. Bu ideya müəyyən tarixi mərhələdə muxtariyyət, sonra isə istiqlal uğrunda mübarizədə qalib gəlmək və öz xalqını xoşbəxt görməkdən ibarət idi (6, 291).

1905-ci ilə qədər Azərbaycan ictimai fikri çar hökumətinin güclü təzyiqi altında idi. Lakin Rus-yapon müharibəsində Rusiyanın ağır məğlubiyyətə uğraması, bunun ardınca 1905-1907-ci illər inqilabının bəhrəsi hesab edilən manifestin imzalanması ilə Azərbaycanın ictimai həyatında yeni bir dövr başlandı. Söz, mətbuat azadlığına imkan verən bu manifestdən bəhrələnən Azərbaycanın qabaqcıl ziyalıları yeni gündəlik qəzetlər nəşr etməyə, mətbəələr açmağa nail oldular. Azərbaycanda bir sıra maarif cəmiyyətləri, siyasi qrup və partiyalar yaradıldı. Mətbuatın geniş vüsət alması ilə Azərbaycanda siyasi, ictimai və milli fikir təşəkkül edərək formalaşırdı. Qəzetlər xalqda milli mənliyin dərk olunmasında, millətin təşəkkülündə mühüm amil rolunu oynayırdı (4, 51).

XX əsrin əvvəllərində milli həyatın canlanması ilə əlaqədar olaraq Azərbaycan (türk) dilində çap olunan dövri mətbuatın sayı da əhəmiyyətli dərəcədə artdı. Bu dövrdə müxtəlif istiqamətdə çoxsaylı qəzet və jurnallar "Molla Nəsrəddin", "Həyat", "Füyuzat", "İrşad", "Şəlalə", "İqbal", "Bəhlul", "Nicat" və s. nəşr olunurdu. Azərbaycanın qabaqcıl ziyalıları rus dilində "Kaspi" və "Baku" qəzetlərinin səhifələrində çıxan müxtəlif yazılar dərc edirdilər.

Əvvəllər ictimai əsaslarla cəmiyyətlər yaratmaq imkanları məhdud olan azərbaycanlılar 1905-ci ildən sonra Müsəlman Xeyriyyə Cəmiyyəti, Nəşri-Maarif Cəmiyyəti, Nicat, Səfa, Səadət kimi bir çox cəmiyyətlər yaradaraq Azərbaycanda bilavasitə milli maarifin canlanmasına böyük əhəmiyyət verirdilər (5, 31).

Lakin bu zaman çar hökuməti 17 oktyabr Manifestindən ucqarlarda istifadə olunmasının qarşısını almaq üçün müxtəlif tədbirlərə əl atırdı. Xüsusilə, Azərbaycanda milli oyanışı cilovlamaq üçün çar hökuməti azərbaycanlılarla ermənilər arasında milli ədavəti qızışdırmağa və hətta bunu açıq qanlı münaqişələr həddinə gətirib çıxarmağa çalışırdı (2, 75). Lakin 1905-ci ilin fevralından başlanan bu münaqişələr nəinki Azərbaycan türklərində oyanmağa başlayan milli duyğuları cilovlaya bilmədi, əksinə bu duyğuları daha da gücləndirərək formalaşdırdı. Erməni amili ilə əlaqədar XX əsrin başlanğıcında Azərbaycan türklərinin siyasi həyatında baş verən oyanma prosesinə, çar hökumətinə qarşı etiraza anti-erməni xarakteri də əlavə olundu (11, 10).

Erməni-Azərbaycan münaqişəsinin acı nəticələrinə baxmayaraq, bu, Azərbaycan türklərində ümumi və amansız düşmənə qarşı birləşmək meylini gücləndirdi və milli mənafeyə xidmət edən təşkilatların yaranmasına müsbət təsir göstərdi. 1905-ci ildə çar hökumətinə qarşı mübarizə aparan Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi "Müsəlman ittifaqı" təşkilatı və Azərbaycan

türklərini erməni hücumlarından müdafiə məqsədilə yaradılmış "Difai" partiyası fəaliyyət göstərirdi. "Difai" partiyasının rəhbərləri Əhməd bəy Ağayev, İsmayıl bəy Ziyadxanov və başqaları erməni-azərbaycanlı münaqişəsində əsas günahkarın çar hökuməti olduğunu dərk edərək bu istiqamətdə xalq içərisində izahat işi aparır, hökumətin ikiüzlü siyasətini tənqid edirdilər (8, 59). XX əsrin başlanğıcında Azərbaycanın siyasi həyatında iki əsas cərəyan yaranıb formalaşırdı:

1) Öz proqramlarını qanun çərçivəsində gerçəkləşdirəcəklərinə ümid edən liberal cərəyan;
2) Bu taktikanı qəbul etməyib çar hökumətini devirməyi əsas məqsəd hesab edən inqilabçı, radikal cərəyan (5, 32).

Azərbaycan liberalları daha çox rus liberallarına, inqilabçı cərəyanın nümayəndələri isə çar hökumətinə qarşı amansız mübarizə aparan Rusiya Sosial-Demokrat Partiyasına yaxın idilər. Məhz Azərbaycanın inqilabi fikirli adamlarının daha çox rus inqilabçıları ilə bağlı olan, yuxarıda qeyd edilən "Hümmət" təşkilatında birləşməsi də bu amillə bağlıdır. İlk türk siyasi təşkilatı kimi meydana gələn "Hümmət" təşkilatının yaranması haqqında Məmməd Əli Rəsulzadə yazırdı: "1903-1904-cü illərdə Məmməd Əmin Rəsulzadə başda olmaqla bir neçə yoldaşımız "Hümmət" adlı milli sosialist mövqeli bir partiya qurduq. Partiyanın gizli şəkildə çap edilən "Təkamül" adlı qəzeti çıxırdı" (5, 33). Lakin 1907-ci il Stolıpin irticası ilə əlaqədar olaraq, bütün Rusiyada olduğu kimi, Azərbaycanda da inqilabi fikirli adamlara qarşı hücumlar, amansız təqiblər başladı. Bununla əlaqədar olaraq, "Hümmət"in bir sıra qabaqcıl üzvləri M.Ə.Rəsulzadə başda olmaqla İrana mühacirət etməyə məcbur oldular (10, 26).

1905-ci ilin yazı və yayında mövcud quruluşun yeniləşdirildiyini bəyan edən bir sıra hökumət fərmanları və sərəncamlarının elan edilməsindən sonra, Azərbaycanda petisiya kampaniyası genişləndi. Rus imperiyasının tərkibinə qatıldıqdan sonra siyasi hüquqsuzluq və zülm şəraitində ilk dəfə idi ki, Azərbaycana, eləcə də digər milli ucqarlara öz arzu və istəklərini çar hakimiyyətinə çatdırmaq imkanı verilirdi. Həqiqətən, yüksək peşəkarlıq və dərin siyasi-hüquqi biliklər tələb edən məsul işdə xüsusi rol görkəmli ictimai xadim Əlimərdan bəy Topçubaşova mənsub idi. Bütün petisiyalar, xahişnamələr, müraciətlər və i.a. onun bilavasitə iştirakı ilə tərtib və təqdim edilirdi (1, 154). Yuxarı sosial təbəqələrin nümayəndələri – Ş.Əsədullayev, R.Şirvanski, Ə.Ağayev, Ə.Topçubaşov, Ə.Ziyadxanov və başqaları tərəfindən imzalanmış bu petisiya onunla əlaqədar idi ki, o, Azərbaycandan çar hökumətinə təqdim olunan ilk proqram sənədi idi. Sonralar bu sənəd digər inzibati idarələrə ünvanlanan müxtəlif müraciətlər, izahatlar üçün bir növ platforma, istinad nöqtəsi oldu. Azərbaycan cəmiyyətinin nümayəndələri petisiyada məhdudiyyətlərin ləğvi məsələsini qoyaraq, "imperiyada yaradılacaq bütün məşvərətçi, qanunverici və bütün digər nümayəndəli təsisatlar"da müsəlmanların təmsil olunmasına, müsəlmanlara aid qanunvericilik təşəbbüsü göstərmək, məhdudiyyətsiz olaraq dövlət və ictimai

vəzifələri tutmaq hüquqlarına xüsusi maraq göstərirdilər.

Beləliklə, Azərbaycanda siyasi cərəyanların formalaşması XX əsrin əvvəllərində ölkədə yaranmış obyektiv şəraitlə sıx bağlı idi. Sərt hüquqsuzluq və zülm şəraitində hər cür qadağanlar və məhdudiyyətlər barəsində danışmaq imkanı əldə etmiş Azərbaycan sahibkarları öz ideoloqlarının simasında ilk dəfə olaraq tələblərini, arzularını və istəklərini ifadə edib ali hökumət instansiyalarına təqdim etdilər. 1905-ci ilin aprel petisiyasında toplanmış, sonralar isə ərizələrdə, müraciətlərdə və mətbuat yazılarında konkretləşdirilən bu tələb, arzu və istəklər bütün xalqın mənafeyini əks etdirirdi və gələcək partiyaların və təşkilatların siyasi platformalarının təməlini qoydu.

Azərbaycan nümayəndələri müsəlman hərəkatında, xüsusilə müsəlmanların siyasi təşkilatının – özünü " İttifaqi-müslimin" adlandırmış Ümumrusiya müsəlmanları ittifaqının yaranmasında yaxından iştirak etdilər (7, 102).

İttifaqın yaradılmasının təşəbbüskarları Krım və Kazan tatarları – Ə. R.İbrahimov, Y.Akçurin, İ.Qasprinski idilər. Ə.M.Topçubaşov hazırlıq işində fəal iştirak etmişdi.

1905-ci ilin payızında "Milli müdafiə cəmiyyəti və müsəlman zadəganlarının, ziyalılarının və yuxarı təbəqələrinin ittifaqı" yarandı."Kaspi" qəzeti bu təşkilatı "Birləşmiş müsəlman ziyalılarının xalq müdafiəsi komitəsi" adlandırmışdı.

Proqram təşkilatın başlıca məqsədini müəyyən etdi- "Qafqazın başqa xalqları ilə birləşərək əsl qardaşlıq münasibətləri yaradılsın, hətta "Daşnaksütyun" partiyası ilə də, lakin bir şərtlə ki, o öz proqramını elan etsin və Qafqazın rifahı, bütün xalqların hüquqları və mənafeləri ilə razılaşsın..." (9, 79).

1907-ci ilin mayında "Müdafiə" təşkilatı yarandı. Görkəmli ictimai xadim İsmayıl xan Ziyadxanov ona başçılıq etdi. Kənd müəllimləri Ə.Qiyasbəyli, H.Saniyev, hərbi topoqraf podpolkovnik İ.Vəkilov, notarius Xəlilbəyov və başqaları "Müdafiə"nin təşkilatçılarından idilər. "Müdafiə" əsas etibarilə Yelizavetpol quberniyasının qərb hissəsində və Tiflis quberniyasının qərb qəzalarında fəaliyyət göstərirdi. Yuxarıda adları çəkilən quberniyaların əhalisinin imtiyazlı hissəsinin nümayəndələri, mülkədar – bəyləri, habelə kənd ziyalılarının nümayəndələri "Müdafiə" təşkilatının sosial dayağı idilər (7, 131).

Azərbaycan xalqının siyasi cəhətdən sıx birləşməsində "Müsavat" (Bərabərlik) Müsəlman Demokratik Partiyası mühüm rol oynadı. "Müsavat" partiyası 1911-ci ilin oktyabrında Bakıda yaradılmışdı. Onu yaradıcı ziyalıların nümayəndələri – jurnalistlər və ədiblər – Tağı Nağıyev, Məmmədəli Rəsulzadə və Abbasqulu Kazımzadə yaradaraq özək təşkil etmişdilər. Partiya çox tezliklə ziyalıların, fəhlələrin, kəndlilərin, qulluqçuların, xırda sahibkarların nümayəndələrini öz sıralarına çəkmişdi. 1912-ci ildə partiyanın 8 bənddən ibarət manifest – proqramı dərc olundu. Qısalığına baxmayaraq proqram milli və dini mənsubiyyətinə fərq qoymadan öz qarşısına bütün xalqlar üçün həyati cəhətdən mühüm vəzifələr qoymuşdu – müsəlman xalqlarını birləşdirmək, müsəlman dövlətlərinin müstəqilliyini bərpa etmək, müstəqilliyin bərpa olunması və

qorunub saxlanması uğrunda mübarizə aparan müsəlman xalqlarına maddi və mənəvi kömək göstərmək. Partiya istər müsəlmanlar, istərsə də bütün bəşəriyyət barəsində bu cür vəzifələri qarşısına qoymuş bütün partiyalar ilə əməkdaşlıq etmək niyyətində idi. Ümumbəşəri dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsi uğrunda mübarizə vəzifəsi onun ətrafına geniş tərəfdarlar dairəsi toplamışdı (10, 35).

M.Ə.Rəsulzadə 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar amnistiyadan istifadə edərək Azərbaycana qayıdır və geniş kütlələri siyasi mübarizəyə cəlb etmək üçün böyük səylər göstərir. Bu işdə onun "Açıq söz" qəzeti böyük rol oynadı, öz səhifələrində istər ölkədə, istərsə də dünyada baş verən hadisələrin müfəssəl təhlilini verən ətraflı icmallar dərc edirdi. Qəzet oxucuların diqqətini Dumada müzakirə edilən məsələlərə cəlb edərək, bəzən onları bu və ya digər məsələyə dair lazımi informasiyanı deputatlara göndərməyə yönəldir, bununla da onların seçici funksiyalarını və vəzifələrini dərk etməsinə kömək edir, habelə onlarda baş verən hadisələrlə bağlılıq hissini formalaşdırırdı. Milli, dini və etnik mənsubiyyətin mahiyyəti haqqında qəzetdə dərc olunmuş çoxsaylı materiallar milli mənlik şüurunun inkişafında, gənc nəslin, xüsusən də tələbələrin tərbiyəsində böyük rol oynamışdı.

1913-cü ildən 1917-ci ilin fevral ayınadək "Müsavat" partiyası qeyri - leqal şəraitdə idi. Lakin 1917-ci ilin fevralından sonra yenidən dirçələn "Müsavat" tezliklə hakim partiyaya çevrildi (7, 135).

Beləliklə, XX əsrin əvvəllərində, azadlıq hərəkatının güclü yüksəlişi dövründə Azərbaycanda yaranmış vəziyyət siyasi təşkilatların və partiyaların formalaşması üçün obyektiv şərait yaratdı. Sosial cəhətdən kifayət qədər rəngarəng olan, öz sıralarında əhalinin demək olar ki, bütün nümayəndələrini birləşdirən bu təşkilatlar bütövlükdə Azərbaycan cəmiyyətinin mənafelərini ifadə etməyə səy göstərirdilər.

**ƏDƏBİYYAT**

1.Azərbaycan tarixi . 7 cilddə. V c. (1900-1920-ci illər). Bakı: Elm, 2008, 696 s.
2. Baykara H. Azərbaycan İstiqlal mübarizəsi. Bakı: Elm, 1992, 276 s.
3.Bağırzadə V. İstiqlal yollarında. Bakı: Azərnəşr, 1992, 82 s.
4.Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.
5.Oruclu M. Azərbaycanda və Mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1991-1992). Bakı: Azərnəşr, 2001, 272 s.
6.Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri). Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1999, 422 s.
7.Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı: Azərbaycan Respublikası "Kitab" cəmiyyəti, 1998, 256 s.
8.Şeyxzamanlı N.Azərbaycan İstiqlal mücadiləsi xatirələri. Bakı: Azərbaycan, 1997, 176 s.
9. Vəliyeva S. Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideologiyası. Bakı: Azərbaycan, 2003, 128 s.
10. Yaqublu N. Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı: 2001, 154 s.
11. Балаев А. Азербайджанское национально – освободительное движение. Баку: 1990, с10.
12. Багирова И.С. Панорама Азербайджана, 1991, 29 май-4 июнь.

## В НАЧАЛЕ ХХ СТОЛЕТИЯ СОЗДАНИЕ И ОРГАНИЗАЦИЯ НАЦИОНАЛЬНОГО ДВИЖЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

**Н.Я.ИСКЕНДЕРОВА**

**РЕЗЮМЕ**

В статье рассказывается о процессе создания национального движения и организации в начале ХХ века в Азербайджане. Исследуется создание и деятельность политических партий, в котором анализируется борьба за независимость Азербайджана.

**Ключевые слова:** национальное движение, политические партии, автономия, независимость Азербайджана, национальная интеллигенция

## THE ESTABLISMENT AND FORMATION OF A NATIONAL MOVEMENT IN AZERBAIJAN IN THE EARLY XX CENTURY

**N.Y.İSGANDAROVA**

**SUMMARY**

The article deals with the establishment and formation of the national movement in Azerbaijan in the early XX century. The establishment and activity of political parties and their struggle for independence are analyzed. The role of Azerbaijani intellectuals in the development of the national movement is highlighted.

**Key words:** National movement, political parties, autonomy, independence of Azerbaijan, national intellectuals